***MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ***
***HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT***
***ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***

*UOT 74.03*

***Bayram Fəti oğlu Apoyev***
*Gəncə Dövlət Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0007-2053-5634*
*E-mail: bayram/apoyev@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(5).202-210*

# SEYİD ƏZİM ŞİRVANİNİN ƏSƏRLƏRİNDƏ TƏHSİL, TƏLİM VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Bayram Fati Apoyev***
*associate professor of*
*Ganja State University ,*
*doctor of philosophy in pedagogy*

# SEYID AZIM SHIRVANI'S ISSUES OF EDUCATION, TRAINING AND UPBRINGING IN THE WORKS

***Байрам Фати оглы Апоев***
*доцент*
*Гянджинского Государственного Университета,*
*доктор философии по педагогике*

# ВОПРОСЫ ОБРАЗОВАНИЯ, ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ СЕИДА АЗИМА ШИРВАНИ

**Xülasə.** S.Ə. Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının ən böyük satirik şairlərindən biri olmaqla bərabər həm də həmin yüzilliyin görkəmli maarifpərvər pedaqoqlarındandır. Şairin ədəbi-bədii irsi ilə müqayisədə onun təhsil, təlim və tərbiyə məsələləri ilə bağlı bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxlayan mütərəqqi pedaqoji fikirləri çox az öyrənilmişdir. Bu məqalədə böyük maarifpərvər pedaqoqun həmin fikirləri, xüsusilə, indiyədək daha az öyrənilmiş əqli və əxlaq tərbiyəsi ilə bağlı baxışları tədqiq və təhlil edilmişdir.
***Açar sözlər**: Seyid Əzim, böyük maarifpərvər, elm, təhsil, təlim, tərbiyə*

**Abstract**. S.A. Shirvani is one of the greatest satirical poets of 19th century Azerbaijani literature and one of the outstanding educational educators of that century. Compared to the poet's literary and artistic heritage, his progressive pedagogical ideas on education, training and education, which have retained their relevance and importance even today, have been studied very little. This article examines and analyzes the ideas of the great educational educator, especially his views on intellectual and moral education, which have been studied less than before.
***Keywords**: Seyid Azim, great educator, science, education, training, upbringing*

**Аннотация**. С.А. Ширвани – один из крупнейших поэтов-сатириков азербайджанской литературы XIX века и один из выдающихся просветителей этого столетия. По сравнению с литературным и художественным наследием поэта, его прогрессивные педагогические идеи в области образования, воспитания и обучения, сохранившие свою актуальность и значение и в наши дни, изучены крайне мало. В данной статье рассматриваются и анализируются идеи великого просветителя, особенно его взгляды на умственное и нравственное воспитание, которые изучены меньше, чем прежде.
***Ключевые слова**: Сеид Азим, великий просветитель, наука, образование, обучение, воспитание*

Məlum həqiqətdir ki, Hacı Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının ən böyük realist satirik şairi olmaqla bərabər, özünün fədakar maarifçilik və müəllimlik fəaliyyəti, eləcə də əsərlərindəki zəngin pedaqoji fikir və ideyaları ilə adını Azərbaycan məktəb və pedaqoji fikir tarixinə qızıl hərflərlə yazdırmış görkəmli pedaqoqdur.

Bu həqiqət, "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda bir daha öz əksini tapmışdır: "Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair, eyni zamanda, … didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir [16].

Ədalət naminə qeyd etmək lazımdır ki, böyük satirik şairin ədəbi-bədii irsi filoloq alimlərimiz tərəfindən demək olar ki, kifayət qədər tədqiq olunmuş, həyat və yaradıcılığı, sənətkarlıq xüsusiyyətləri öyrənilmiş, XIX əsr Azərbaycan ədəbiyyatı tarixində onun yeri və rolu yüksək qiymətləndirilmişdir. Bu baxımdan F. Köçərli [11], F. Qasımzadə [12], K. Məmmədov [13], X. Məmmədov [14], Z. Əsgərli [7] və başqalarının əməyini xüsusi qeyd etmək olar.

Böyük mütəfəkkir şairin fəlsəfi-etik, ictimai-siyasi görüşlərinin öyrənilməsi sahəsində də az iş görülməmişdir. Belə ki, tədqiqatçılardan Z. Göyüşov, İ. Rüstəmov, R. Əhmədli, F. Kərimova və başqaları bu istiqamətdə apardıqları elmi axtarışlarının nəticələrini çap etdirdikləri əsərlərində əks etdirmişlər. [8; 15; 4; 10].

Qeyd etmək lazımdır ki, adları çəkilən görkəmli filoloq və filosof alimlərimizin S.Ə. Şirvaninin ədəbi-bədii irsinin öyrənilməsinə həsr olunmuş tədqiqatlarında və işıq üzü görmüş elmi əsərlərində böyük maarifpərvər şair-pedaqoqun pedaqoji görüşlərinin öyrənilməsi istiqamətində aparılan yeni tədqiqat işlərinin ümumi metodoloji əsasını təşkil edə biləcək dəyərli fikirlər də öz əksini tapmışdır.

Əlbəttə, böyük satirik şair olmaqla bərabər, həm də görkəmli maarifpərvər pedaqoq olan, "… xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb" vasitəsi ilə "… Azərbaycan təhsil tarixində dərin iz qoymuş" [16] böyük mütəfəkkirin zəngin pedaqoji irsi pedaqoq alim və tədqiqatçıların diqqətini cəlb etməyə bilməzdi. Bu baxımdan Azərbaycan məktəb və pedaqoji fikir tarixinin korifey tədqiqatçılarından professor, Əməkdar elm xadimi Əhməd Seyidov və akademik Hüseyn Əhmədovun, eləcə də Seyid Əzimin pedaqoji fəaliyyəti və maarifçilik ideyalarının ilk tədqiqatçılarından olan Əmir Tağıyevin xidmətlərini xüsusi vurğulamağı vacib hesab edirik. Belə ki, hər üç alim pedaqogika tarixi, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə həsr etdikləri dərslik, dərs vəsaiti və monoqrafiyalarında böyük satirik şair və pedaqoqun XIX əsr Azərbaycan məktəb və pedaqoji fikir tarixindəki yeri və rolunu yüksək qiymətləndirmiş, onun pedaqoji görüşlərinin yığcam səciyyəsini vermişlər.

Digər tədqiqatçılardan professor Kamal Camalov [3]; dosent Knyaz Aslan [1], Əlifağa Bağırov [2], Flora Kərimova [9] və başqaları öz kitab və məqalələrində Seyid Əzimin maarifçilik fəaliyyətini geniş təhlil etməklə yanaşı onun təhsil və tərbiyə haqqında bəzi fikirlərinə ötəri də olsa toxunmuşlar.

Bütün göstərilənlərlə bərabər, təəssüflə qeyd etmək lazımdır ki, S.Ə. Şirvaninin elmi-pedaqoji görüşləri, xüsusilə, təhsil, təlim və tərbiyə ilə bağlı fikirləri onun ədəbi-bədii irsi ilə müqayisədə çox az öyrənilmişdir. Elmi-pedaqoji ictimaiyyətin, əsasən də gənc tədqiqatçıların diqqətinə həmin məsələnin vacibliyini çatdırmaq məqsədi daşıyan bu məqalədə böyük maarifpərvər pedaqoqun əsərlərində geniş əks olunmuş bəzi pedaqoji fikirlərini, xüsusilə də, əqli tərbiyə və əxlaq tərbiyəsi ilə bağlı görüşlərini tədqiq və təhlil etməyə çalışmışıq.

Azərbaycanda XIX əsrdən başlayaraq geniş vüsət alan maarifçilik hərəkatının, xüsusilə də bu hərəkatın başlıca fəaliyyət istiqamətlərindən biri olan anadilli məktəblərin yaradılması uğrunda mübarizənin ön cərgəsində addımlayan S.Ə. Şirvaninin istər H. Zərdabidən başlamış dövrünün onlarla maarifpərvər ziyalılarına nəzmlə yazdığı çoxsaylı məktublarda (təkcə 2013-cü ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən çap edilmiş "Seçilmiş əsərləri"nin II cildində belə məktubların sayı 70-dən çoxdur), istər oğlu Mircəfərə müraciətlə yazdığı nəsihət və öyüdlərdə (təkcə "Rəbiül-ətfal" dərsliyində onların sayı 30-a yaxındır), istərsə də müxtəlif şeirlərində təhsilin, elmin insan həyatındakı rolu, təhsi-

lin məzmununda elmi biliklərin üstünlük təşkil etməsinin, təlimin ana dilində olmasının, biliklərin öyrədilməsində yeni üsuldan (“üsuli-cədid”dən) istifadənin və məktəbdə bir deyil, ən azı üç dilin öyrədilməsinin zəruriliyi və əhəmiyyəti haqqında dəyərli mütərəqqi pedaqoji fikirlərinə geniş rast gəlirik. Həmin fikirlərdən bir neçəsinə konkret nümunələr əsasında diqqət yetirək.

H. Zərdabiyə nəzmlə yazdığı geniş və dərin məzmunlu məktubda (sonralar “Qafqaz müsəlmanlarına xitab” adı ilə məşhurlaşan şeir) maarifpərvər şair-pedaqoq bütün Qafqaz müsəlmanlarının çox ağır bir xəstəliyə-dərdə (“nadanlıq”) düçar olduğunu ürək ağrısı ilə dilə gətirir və qəti əminliklə bildirir ki, bu “vəba”nın yeganə dərmanı təhsildir, elmi biliklərdir:

Bir bəladır bu dərdi-nadani,
Ki onun elm olubdur dərmani [18, s. 5].

Həmin məktubda şair pedaqoq xüsusi vurğulayır ki, Qafqazın “hər vilayətində” “beş-on kəsəbə”dəki “əlli min seyidü axund, tələbə, əlli dərviş, əlli mərsiyəxan, “əlli min hoqqabazi-naqabil”in hamısının fikri xalqa təhsil, savad, bilik vermək, elm öyrətmək əvəzinə, öz yalan sözləri ilə “xalqı soymaq” və onu “quru yerdə qoymaqdır”. Məhz buna görə də elmə, təhsilə diqqət yetirən “qeyri-millətlər” “tərəqqi edibdir”; “göyə çıxmağa” tədbir görür; “gəştiyi-yelkan”ı (yelkənli gəmini) “paraxoda” çeviriblər, biz isə “göz açmağı” bilmədiyimiz üçün “köhnə işlərdə qalmışıq” [yenə orada, s. 6].

Şeirdə savadsız nadanların elmə, dünyəvi təhsilə, xüsusilə təbiət fənlərinin öyrədilməsinə qarşı çıxmasından, Yer kürəsinin hərəkəti, zəlzələ və digər təbiət hadisələrinin baş verməsi səbəbləri haqqında elmi bilik verməyə çalışan müəllimləri “kafər” adlandırmasından şikayət edən Seyid Əzim, yüksək dünyəvi təhsil almağın insan həyatındakı rolunu başa salmaq üçün “oxuyub elm … hasil” edən və bu elmin sayəsində “bülənd məkan” (yüksək məqam sahibi) olan H. Zərdabini nümunə göstərir, elmi bilikləri insanın “zinəti” adlandırır; əziyyət çəkməkdən yan keçən elmsiz savadsızları “misli-heyvan” (heyvana bərabər) hesab edir [yenə orada, s. 7].

“Həsən bəy Məlikova (Möhsünə cavab)” adlı digər bir məktubda – məsnəvi formasında yazdığı şerdə bir daha insan həyatında dünyəvi təhsilin, elmi biliklərin rolundan bəhs edir, elm üçün hikmət sahiblərinin “çox riyazətlər” (əzab-əziyyətlər) çəkdiyini, elmi bilikləri dərindən mənimsəyənlərin allahın bəxş etdiyi ən yüksək güc-qüvvət, nemət sahibi olduqlarını xüsusi vurğulayır və elmsiz insanları “hünərsiz” adlandırır [yenə orada, s. 9].

Oğlu Cəfərə müraciətlə yazdığı çoxsaylı şeirlərinin birində təhsilin, elmi biliklərin insan həyatında oynadığı böyük rolu şərh etməklə bərabər, cahil, savadsız insanları uzunqulağa bənzədərək deyir:

Ey oğul, bu dəlili bişəkdir,
Adəmi-bisavad eşşəkdir [18, s. 16].

Bu şeirdə dərin biliklərə sahib olanların hamıdan üstün olması fikrini oğluna təlqin etməyə çalışan şair-pedaqoq ona daha çox bilikləri mənimsəmək üçün bir deyil, bir neçə dili öyrənməyi tövsiyə edir və izah edir ki, hər bir dil allahın insanlara bəxş etdiyi bir nemətdir. Çox nemətlərə sahib olmaq üçün çox dil öyrənmək lazımdır:

Kim ki bəs bir dil eylədi hasil,
Oldu bir nemətə o kəs vasil.
Cəhd qıl neməti-təmamə yetiş,
Elmi təhsil qıl, məqama yetiş [yenə orada].

Şairin, təlimin ana dilində olmasının zəruriliyi ilə bərabər, tədris prosesində şagirdin yaşadığı ölkə üçün, dövr-zaman üçün əhəmiyyətli olan bir neçə dilin də öyrədilməsinin vacibliyi barədə mütərəqqi pedaqoji fikirlərinə Hacı Səid Ünsizadəyə ünvanladığı böyük həcmli – 117 beytdən ibarət qəsidədə geniş rast gəlirik. Qəsidənin əvvəlində şair, on doqquzuncu yüzilliyin ikinci yarısında Qafqazın nüfuzlu ruhanilərindən biri, Tiflis şəhərində çap etdirdiyi məşhur “Ziya” qəzetinin naşiri, 1875-ci ildə Şamaxı Ruhani idarəsinin nəzdində “Məclis” adlı məktəb açmış Hacı Səid Ünsizadəni “əhli-ürfan” (böyük bilik sahibi ziyalı), “munisi-hər dərdi pünhani” (gizli fərdlərin məlhəmi), “xeyirxahi-dövləti-millət” (dövlətin, xalqın xeyirxahı), “həqiqət aləmində millətə … xidmət etmiş” bir şəxsiyyət kimi tərifləyir, Şamaxıda xalqın tərəqqisi üçün “bir darülfünün” (elmlər evi-məktəb) və qiraətxana açmaq fikrini təqdir edir alqışlayır.

Adı çəkilən qəsidədə şair-pedaqoq, daha sonra Şirvanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Şamaxıda yeni açılan məktəblərdə ən azı üç dilin öyrədilməsinin vacibliyini vurğulayır, həmin dilləri belə sıralayır və onların zəruriliyini belə əsaslandırır:

1. Ərəb dili – Quranın mənasını öyrənmək üçün vacibdir.

2. "Vətəndə söylənən dil" – türk (Azərbaycan) dili – ana dili – biri-birimizə ünsiyyət üçün zəruridir.

3. Rus dili – tabeliyində olduğumuz dövlətin (o dövrdə Rusiyanın) dili – "qayda-qanunları" bilmək üçün lazımdır.

Tədris prosesində çox dil öyrədilməsinin əhəmiyyətini aydın və sadə şəkildə izah edən şair-pedaqoq, burada bir daha təlim dilindən asılı olmayaraq, təhsilin məzmununda elmi biliklərin üstünlük təşkil etməsinin vacibliyini xüsusi vurğulayır:

"Nə dildə olsa olsun , elm olsun …" [18, s. 67-69].

Elmi biliklərin şagirdlər tərəfindən asan mənimsənilməsi üçün elə buradaca Seyid Əzim uşaqlara fiziki cəza verməklə zorla "zeyi zəbər zə"ni mexaniki əzbərlədən, uşaqları "müşkülə" salan köhnə təlim üsulundan imtina etməyi, "çubifələqqa"nı (uşaqların ayaqlarını falaqqaya salıb çubuqla döyməyi) məktəbdən götürməyi, yeni təlim üsulundan – "əlifbayi-cədid"dən istifadə etməyi, şagirdlərdə elmi dünyagörüşünün formalaşmasında heç bir rolu olmayan əsərlərin – "Büstan", "Gülüstan", "Yusif və Züleyxa" və s. əvəzinə "Əxlaq elmini", "Hikmət" elmini, "millət tarixini", hesabı, coğrafiyanı öyrətməyi tövsiyə edir.

Mütəfəkkir şair-pedaqoqun təlim prosesində müəllim-şagird münasibətləri ilə bağlı bu gün də əhəmiyyətini itirməyən dəyərli fikirlərinə dərs dediyi uşaqlar üçün hazırlayıb onların istifadəsinə verdiyi "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlı dərslikdə daha geniş rast gəlirik. Məsələn, nəzmlə yazdığı "Alimlərə hörmət haqqında moizə"də Seyid Əzim, əvvəlcə elmin, təhsilin və təlimin insan üçün əhəmiyyətini izah edir, oğlu Cəfərə "əhli-elmə həmişə hörmət" etməyi tapşırır, onu başa salmağa çalışır ki, müsəlman və ya xristian olmasından asılı olmayaraq, "hər kimin elmi var,– o, insandır". Elmsiz insan: "avamdır, həmişə zillətli yoldadır, zəlildir". Öz dərin elmi sayəsində Loğman peyğəmbərlik məqamına yüksəldi:

Elmdən oldu həzzrəti-Loğman,
Hikmət ilə səramədi-dövran.
Elm bir nur, cəhl zülmətdir,
Cəhl duzəxdir[1], elm cənnətdir [18, s. 257].

Moizədə daha sonra şair-pedaqoq oğluna nəsihət edir ki, "sənə hər kim ki, elm edər təlim" ona ehtiramla "təzim" et. Alimə, müəllimə hörmət etməyən kəs "peyğəmbərə ümmət" ola bilməz. Müəllimini harda görsən "ona səlam eylə, baş əyib qul tək ehtiram eylə". O danışarkən onu diqqətlə dinlə. "Adəm ol incimə qiraətdən". Bil ki, müəllimin-ustadın sənin üçün mənəvi atadır; "Bədzat" uşaqlar kimi heç vaxt ona "məmat" (ölüm) arzulama.

Sadalanan bu fikirlərin doğruluğunu əsaslandırmaq üçün müəllif, həyatdan əyani misal göstərərək üç əhvalatı nəzmə çəkir:

1. **Məktəbli ilə müəllim əhvalatı**. Bir uşaq məktəbdən, təlimdən bezib incidiyi üçün öz müəlliminə ölüm arzulayır ki, canı təhsil almaq əziyyətindən qurtarsın. Bu qarğışı eşidən müəllim şagirdə: – Ey nadan, mən ölsəm, atan səni başqa bir müəllim yanına aparacaqdır. Əgər avara yetim ("yetimi sərgərdan") olmaq istəyirsənsə, mənim yox atanın ölümü üçün dua et [18, s. 258].

2. **Bir "Qare" ilə şagirdlərin əhvalatı**. Misirdə dərin elmə sahib bir "qare" (qiraətçi) varmış. Uşaqlara "Quran"ın qiraətini öyrədən bu şeyx onlara dərs vaxtı bəlağətli qiraətdən başqa söz danışmağı qadağan etmişdi. Şeyxin bu qadağalarından zara gələn uşaqlar ondan qisas almaq qərarına gəlirlər. Bir gün şeyx qəlyan çəkərkən onun əmmaməsinə qığılcım düşür. Bunu görən uşaqlar dillənmir ki, əmmamə alışıb-yansın. Əmmamə yanmağa başlayandan sonra uşaqlardan biri bəlağətli qiraətlə, uzun-uzadı sözlərlə şeyxə xəbər verir ki, əmmamə yanır. Şeyx əsəbiləşib uşağa niyə tez xəbər verməmiyini irad tutanda, uşaq: – Özün qiraətsiz-bəlağətsiz danışmağı qadağan etmisən. Əsas günahın onda olduğunu anlayan şeyx, Lazım gəldikdə, qiraətsiz də danışmağa icazə verir [18, s. 258-259].

3. **Şagirdlərin müəllimə kələk gəlmələri**. Dərin biliyə sahib bir müəllim (molla) dərsə çox ciddi yanaşır, uşaqları yaxşı öyrətmək üçün onlara çətin tapşırıqlar verir, həmin tapşırıqların dəqiqliklə yerinə yetirilməsini tələb edirdi. Bu tələblərdən bezikən, "əqli geyi kamil" olan uşaqlar müəllimə kələk gəlməyə qərar verirlər. Səhər müəllim dərsə gələndə uşaqlardan biri ona yaxınlaşıb üzünün qaraldığını, gözlərinin ağının saraldığını, gözünün üstünün şişdiyini söyləyir. Digər uşaqlar da eyni sözləri dedikdə,

[1] Düzəx sözünün fars dilində mənası "cəhənnəm" deməkdir

müəllim vahimələnir və qəflətən rəngi qaralır. Uşaqlara bir həftə dərsdən icazə verib, evə gəlir və yatağa düşür. Tez-tez müəllimə baş çəkməyə gələn uşaqlar gah onu "qucaqlayır", gah "ağlayır", nə üçün bu hala düşdüyünü soruşurlar. Vahimələnən və qorxuya düşən müəllimin vəziyyəti ağırlaşır, dünyasını dəyişir.

Şairin oğluna nəsihətindən və sadə dildə nəzmə çəkdiyi bu əhvalatların məzmunundan aydın olur ki, o, təlim prosesində müəllim-şagird münasibətlərinin səmimiliyinə, onlar arasında qarşılıqlı hörmətə yüksək qiymət verirdi.

Təlim prosesində yüksək savadlı müəllimin əməyinə böyük dəyər verən Seyid Əzim, "Oğluma xitab" adlı digər bir şeirində elmli, "rəbbani" ("allah adamı") müəllimlərlə dostluq etməyi, onların qarşısında "dərbani" (xidmətçi, qapıçı) olmağı tövsiyə edərək yazır:

Ey oğul, alim olsa rəbbani,
Sən onun ol dərində dərbani [18, s. 262].

Bununla bərabər, şair, bu şeirdə yüksək ruhani təhsili almaq adı ilə Bağdada, Kərbəlaya, İsfana gedən, elmə, biliyə yiyələnmək əvəzinə, "beş-altı vərəq" oxuduqdan sonra, "saqqala rövnəq" verməklə, eyş-işrətlə məşğul olan savadsız mollaları kəskin ifşa edir, belələrindən uzaq durmağı oğlu Cəfərə məsləhət görür.

"Müctəhidin təhsildən qayıtması" şeirində mütərəqqi fikirli S.Ə. Şirvani xaricdə guya ali ruhani təhsil alıb vətənə qayıdan müctəhidin simasında dünyəvi təhsilin əleyhinə çıxan, fikri-zikri xalqı dini xurafatla cahilliyə, nadanlığa düçür etmək olan mürtəce qüvvələrin – "Telqrafı, elmi-bəlis" (iblisin ixtirası), "dəmir yolu" – "kari-şeytan" (şeytan əməli) adlandıran, "dini dinara" satan, yalandan gah fələk, gah ərşdən "çərənləyən", avam camaatı "xarü zəlil" eyləyən və beləliklə də var-dövlət, cah-cəlal sahibi olanların iç üzünü kəskin ifadələrlə açır, ifşa edir, elələrini müsəlmanların digər xalqlarla (xristianlarla) müqayisədə "tərəqqidə geri" qalmasının günahkarı hesab edir:

Xaçpərəstlər təmam düşdü qabaq,
Tökülüb dalda qaldıq, ay sarsaq!…
Əhli-islam oldu xarü zəlil,
Baisi sənsən, ey imami-cəlil! [18, s. 263-265].

"Cahil ata ilə alim oğul hekayəsi", "Alimi-biəməlin vaqiəsi" və s. şeirlərində də xaricdə ali ruhani təhsil almaq bəhanəsi ilə "neçə illər qürbətdə" "eyşü-işrətdə" olub, heç bir elmi bilik qazanmayan və vətənə qayıtdıqdan sonra avam camaatı öz yalanları ilə aldadan, "bir kəlmə" ilə ("bilənlər bilməyənlərə öyrətsin") cahilləri yola verən savadsız müctəhidləri – öz mənafeləri naminə dünyəvi təhsilin, elmin əleyhinə çıxanları kəskin tənqid edir, belələrini "alimi cahil" adlandırır.

Elmi biliklərin insan həyatında var-dövlətdən, "mal-mülkdən" daha böyük rol oynadığını uşaqlara başa salmaq üçün maarifpərvər şair, "Misir şahzadələri" adlı hekayəti nəzmə çəkərək "Rəbiül-ətfal" dərsliyinə daxil etmişdir. Hekayətdə deyilir ki, Misir ölkəsində iki şahzadə qardaşın biri "elmə talib", digəri isə "var-dövlətə rağib" (meylli) olurlar. Birinci şahzadə böyük əzab-əziyyətlə elmə yiyələnir, ikincisi isə asanlıqla var-dövlət sahibi olur. Bir gün var-dövlət sahibi olan şahzadə alim qardaşını qınayır ki, bu elmin sənə nə xeyri var ki, bu qədər əzab-əziyyət çəkirsən. Alim şahzadə cavab verir ki, Sən var-dövlətin sayəsində "Mülki-Firon"a varissən, mən isə öz elmimlə "ənbiya irsinə" varisəm. "Məndən afaqə elm olur hadis", Sən isə "Qəmü azari-xalqə baissən" (Xalqın qəm oduna səbəbkarsan), [18, s. 376-377].

Təhsil və təlimdə uğurlu nəticənin müəllimin savadlı olmasından və uşağa bir ata kimi qayğı göstərməsindən əhəmiyyətli dərəcədə asılı olması fikrində olan şair-pedaqoq, bu prosesdə şagirdin təlimə marağının, tərbiyəsinin, istedadının da önəmli olduğunu dönə-dönə qeyd etmişdir. Bu fikrini valideynlərə aydın çatdırmaq üçün o, "Padışah və ədib" adlı mənzum hekayəsindən istifadə edir. Hekayədə göstərir ki, öz elmi, kamalı, mədəniyyəti ilə ad-san qazanmış bir müəllim öz oğluna elm öyrədirmiş. Padşah bunu eşidib oğlunu da həmin bilikli müəllimə "təslim" edir ki, ona da "elmi fəzl edə təlim". Müəllim bir neçə il zəhmət çəkib padşahın oğluna elm öyrətməyə çalışsa da, heç bir fərasəti, istedadı olmayan oğlan heç nə öyrənə bilmir.

Padşah müəllimi "vədinə xilaf" çıxmaqda, hətta, "əmanətə xəyanət" etməkdə suçlayanda və cəza ilə hədələyəndə, o, valideyni (padşahı) başa salır ki, hər daşda "gövhər, simuzər" olmadığı kimi, hər uşaqda da qabiliyyət, istedad eyni olmur. Və ona görə də burada günah müəllimdə yox istedadı olmayan oğlundadır.

Müəllim-şagird münasibətlərinin səmimi olmasının vacibliyini digər seirlərində də diqqətə çatdıran Seyid Əzim, yazdığı qəsidələrin bi-

rində müəllimi sayəsində müəyyən məqama yetişən kimi öz ustadının üzünə ağ olub, özünü ondan üstün sayan nankorları kəskin ifadələrlə ifşa edir, belələrini öz sahibinə hürüyən "quduz it"ə, sahibinin verdiyi ət-südlə böyüyüb "gəlib it" olan kimi onun ayağından tutulan "küçüyə", "anasının qabağına keçib şıllaq atan şux qoduğa" bənzədir [17, s. 349-350].

Beləliklə, böyük maarifpərvər şair-pedaqoqun təhsil və təlim ilə bağlı fikirlərinin tədqiq və təhlili aydın göstərir ki, İslam dünyasının müqəddəs şəhərləri olan Məkkə, Mədinə, Kərbəla, Nəcəf və s. ziyarət edən, "Hacı" titulunu daşıyan, "Seyid" nəslindən olan, yüksək ali ruhani təhsil alan S.Ə. Şirvani dini təhsilə deyil, dünyəvi təhsilə, təhsilin məzmununda xalqın, ölkənin tərəqqisinə, şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına xidmət edən müasir elmi biliklərə, həmin biliklərin dərindən mənimsənilməsini təmin edən yeni təlim üsullarına xüsusi üstünlük vermişdir.

Bütün bunlarla bərabər, bir məsələni xüsusi vurğulamaq vacibdir ki, Seyid Əzim, nə mürtəce "din xadimlərinin" dediyi kimi islam dininin əleyhinə olan "kafir", nə də bəzi sovet dövrü tədqiqatçılarının qələmə vermək istədikləri "ateist ruhlu" şair olmuşdur.

Yüksək ali ruhani təhsilli mütəfəkkir şair-pedaqoq olan S.Ə. Şirvaninin əsərlərində təhsil və təlimlə yanaşı, tərbiyə ilə bağlı mütərəqqi fikirlərinə də geniş rast gəlirik.

Əsərlərinin, tərbiyə ilə bağlı fikirlərini öyrənmək baxımından araşdırılması göstərir ki, o, şəxsiyyətin formalaşmasında tərbiyənin roluna çox yüksək qiymət vermiş, istər müəllimlik fəaliyyətində, istərsə də bədii yaradıcılığında bu məsələyə xüsusi diqqət yetirmişdir. Fikrimizi əsaslandırmaq üçün konkret misallara müraciət edək.

"Həsən bəy Məlikova (Möhsünə cavab)" adlı məsnəvidə şair-pedaqoq göstərir ki, qəflət yuxusundan "əhli-islamı" oyatmağın, başqa millətlərdən geri qalmaqdan xilas etməyin əsas yolu tərbiyədir. Bəşər övladı "qabili-tərbiyyət" baxımından heç də ağacdan geri qalmır. Təbiətdəki daşı "təsiri-afitabi-fələk" lələ, gövhərə "döndərir". Ağacdan və daşdan daha üstün varlıq olan insanı da elmin və tərbiyənin təsiri ilə "nakamil"likdə (savadsızlıqdan, avamlıqdan, cəhalətdən) xilas etmək mümkündür. "Elmi-bitərbiyət səmərəsizdir" deyən mütəfəkkir pedaqoqun fikrincə, kamil insan yetişdirmək üçün elm və təhsillə bərabər tərbiyənin də gücündən istifadə etmək vacibdir. Çünki:

1. Tərbiyət mayeyi-səadətdir,
Tərbiyət şəxsə malü dövlətdir [18, s. 9].
2. Bilməyən yoxdur kim, bu mənanı:
Tərbiyət kamil eylər insanı. [yenə orada, s. 10].

Başqa bir əsərində – "Mircəfərə xitab" adlı şeirində bir daha elm və təhsillə yanaşı şəxsiyyətin formalaşmasında, kamil insan kimi yetişməsində tərbiyənin rolunu yüksək qiymətləndirərək vürğulayır ki, tərbiyəvi təsirin gücü ilə, hətta, ən qabiliyyətsiz uşağı kamilləşdirmək mümkündür:

Ki, nə qədər olsa şəxs naqabil,
Tərbiyyətlə olur yenə kamil [18, s. 245].

Mütəfəkkir şair-pedaqoqun tərbiyə ilə bağlı elmi-pedaqoji baxışlarının nüvəsini əqli tərbiyə və əxlaq tərbiyəsi haqqındakı fikirləri təşkil edir. Həmin fikirlər isə onun elmi-fəlsəfi görüşlərinin məhsuludur. "S.Ə. Şirvaninin fəlsəfi görüşləri" adlı dəyərli monoqrafiyasında professor Rəfail Əhmədli Seyid Əzimi çox haqlı olaraq "bir alim, bir filosof, bir şair və bir mütəfəkkir" hesab edir və fikrini belə əsaslandırır: "Öz yaradıcılığında Seyid Əzim Şirvani istər elmi əsas götürən alimlərin, istər ağılı idrakın əsası hesab edən filosofların, istərsə də insan ruhunu hərəkətə gətirən, insanı Allaha qovuşduran eşqi əsas götürən sufilərin xələfi kimi onların fikir və düşüncələrini əks etdirərək həm elmə, həm ağıla və həm də eşq, məhəbbətə eyni dərəcədə yanaşmışdır" [18 , s. 323].

Professor R. Əhmədlinin bu dəyərli elmi qənaətini təqdirlə yanaşı, qeyd etməyi vacib sayırıq ki, S.Ə. Şirvani həm də böyük insanpərvər və maarifpərvər pedaqoqdur. Həm "Ağıllı idrakın əsası hesab edən" filosof, həm də tərbiyəni "mayeyi-səadət", elmi ağılın "nuru" adlandıran, "Əqildəndir şərafəti insan" deyən pedaqoq kimi Seyid Əzimin fikrinə görə kamil insanın formalaşmasının əsas yolu əqli tərbiyədən – şagirdlərdə elmi dünyagörüşünün, elmi biliklərin dərindən mənimsənilməsi, dərketmə maraqları və bacarıqlarının inkişaf etdirilməsindən keçir.

Məqalənin əvvəlində elm, təhsil, elmi biliklərin öyrədilməsi barədə mütəfəkkir şair-pedaqoqun fikirlərinə aid çoxsaylı nümunələr göstərdiyimiz üçün burada əqli tərbiyə ilə bağlı bəzi fikirlərini qısaca qeyd etməklə kifayətlənməyi

məqsədəuyğun hesab edirik.

Xalqın cəhalətdən, nadanlıqdan savadsızlıqdan xilas yolunu elmi biliklərə yiyələnməkdə görən maarifpərvər şair, oğlu Cəfərə müraciətlə yazdığı çoxsaylı "Öyüd" və "nəsihət"lərin demək olar ki, hamısında ona, ilk növbədə, öz ağlı ilə hərəkət etməyi, insan üçün "peyğəmbərə" bərabər "rəhbər" olan "əqli" özünə ən gözəl dost bilib onun (əqli) göstərdiyi doğru yolla getməyi, savad qazanıb kamal sahibi olmağı məsləhət görür:

Əqli peyğəmbərin qılıb rəhbər,
Öyrən ababi-məzhəbi Cəfər.
Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get [18, 16].

Həmin şeirdə daha sonra oğlunun ağıllı, kamallı bir övlad kimi yetişməsinin qayğısına qalan maarifpərvər ata (Seyid Əzim) ona (oğlu Cəfərə) Şirvandakı "əhli-kəmal", "əhli-elmü sahibi-hal" olanlardan "həcəri" (daşı) "qabili-tərbiyət" "qılan"lardan nümunə götürməyi tövsiyə edir.

Tərbiyə ilə bağlı pedaqoji görüşlərində əqli tərbiyə ilə bərabər, əxlaq tərbiyəsi məsələlərinə də geniş yer verən S.Ə. Şirvaninin fikrinə görə hər bir kəs, milli və dini mənsubiyyətindən, vəzifəsindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, ilk növbədə, **İNSAN** olmalıdır:

Müsəlman ol, müsəlman ol,
Əlqərəz, insan ol, insan ol!

Dahi Nizaminin "əgər insansansa, insanlığı sev"; "İnsanla yaşayan mərddir, kişidir, kimsəni sevməmək namərd işidir" və s. kimi humanizm ideyalarını inkişaf etdirib daha da zənginləşdirən insanpərvər şair-pedaqoq, bütün bədii əsərlərində, eləcə də uşaqlar üçün tərtib etdiyi "Rəbiül-ətfal" ("Uşaqların baharı") dərsliyinə daxil etdiyi tərbiyəvi-didaktik oxu materiallarında oğlu Cəfərin nümunəsində gənc nəsli əxlaqlı insan – "əhli-elm", "əhli-ürfan", "əhliiman", "xoşzəban", "şəkər sözlü", "gülər üzlü", "naməhrəmə nəzər yetirməyən", namuslu, qeyrətli, mərd insan olmağa çağırır.

Əlbəttə, böyük insanpərvər pedaqoqun insanlarda görmək istədiyi, təqdir və təbliğ etdiyi, gənc nəslə aşılamağa çalışdığı əxlaqi keyfiyyətlər çoxdan-çoxdur. Həmin keyfiyyətlər üzərində məqalənin həcmi baxımından geniş dayanmaq qeyri-mümkün olduğu üçün onları qruplaşdırmaqla və qısa qeydlərlə kifayətlənməyi məqsədəuyğun hesab edirik.

1. **Ədəb-ərkan**: Ədəb-ərkan bizə məclisləri "ədəbxanə" adlandıran "ululardan" miras qalıb. Ədəbli olmaq hər kəs üçün "vacib" olan əxlaqi keyfiyyətdir. Ədəbli olmağın əlamətləri ("ədəbin rəsmi") məclisə daxil olan hər bir insanın davranışından ("hərəkətlərindən"), müraciət və cavab vermək formasından ("cavabü xitab"), danışığından-sözündən ("qövlü göftardan") məlum olur. Ədəbli olan kəs "məclisə daxil" olan kimi "yuxarı başda" əyləşməməli, verilən suala "mətləbdən ziyadə" cavab verməməli, sağında və solunda əyləşənlərin "bihudə (artıq) söhbət ilə" yeməyinə mane olmamalı, başqaları danışanda qulaq asmalı, özünü ağıllı sayıb məclisdə söhbəti ələ almağa çalışan cahillərə baş qoşmamalıdır [18, s. 375].

2. **Əmək sevərlik, işgüzarlıq**. Heç vaxt boş-bekar gəzmə, bir işlə, bir sənətlə məşğul ol. Adəmdən başlamış Məhəmməd peyğəmbərədək hamısı bir iş-bir sənət sahibi olmuş və öz əməkləri ilə dolanmışlar. İşsiz-gücsüz olan adam ancaq yanmağa yarayan odundan başqa bir şey deyildir: "… adəmi bikar xüşk (quru) olan bir odundur, layiqi-nar (od)" [18, s. 376].

3. **Dostluq**. Hər insanla dostluq etmək olmaz. Yaxşı dost eybini üzünə söyləyəndir. "Eybi örtən rəfiq gövdəndir. (mədə-bağırsaq sistemi), Onu sən dost sanma, düşməndir" [18, s. 360]. Ağıllı olan kəs "hər gəda ilə" deyil öz səviyyəsinə uyğun olan biri ilə dostluq edər. "Axmaqla dostluq edən, axmaq olar" [18, s. 308]. Yaxşı dost öz dostu ilə mübahisə yox, "ittifaq eylər". Çünki "ittifaq eyləyən" iki dost birləşən "beş barmaq" kimi güclü olur və hər bir çətinliyin öhdəsindən asanlıqla gəlir.

4. **Yaxşılıq, xeyirxahlıq, səxavətlilik**. Yaxşılıq, xeyirxahlıq heç vaxt itmir, gec-tez qabağına çıxır (ayının siçana etdiyi yaxşılıq kimi. Siçanı öldürməyib buraxan ayı bu yaxşılığı sayəsində həyatını itirməkdən xilas olur: günlərin bir günü o, ovçuların qurduğu tora düşür, siçan gəlib dişləri ilə toru kəsir, ayını ölümdən qurtarır).

İnsanın ən gözəl əxlaqi keyfiyyətlərindən biri onun adına yaraşıq, şan-şöhrət gətirən səxavətlilikdir: "Qərəz ki, zümreyi-mərdanə zinətsəxavətdir, səxavətdir, səxavət!" [18, s. 383].

5. **Doğruluq, dürüstlük.** Doğruluq – insan qəlbinin paklığından, saflığından, doğan yüksək əxlaqi keyfiyyətdir. Doğruluğu özünə "pişə" (öndə gedən, yol göstərən) seçən insanın

heç vaxt narahatçılığı, qəlb əzabı olmaz: “Seyida, doğruluq elə pişə, doğruya yoxdu bimü əndişə”.

Mütəfəkkir satirik şairin əsərlərində insanın mənəviyyatını tənəzzülə uğradan mənfi əxlaqi sifətlərin kəskin ifşasına da geniş rast gəlirik. Oğlu Cəfər başda olmaqla bütün gənclərə tövsiyə və nəsihət edir ki, mənfi əxlaqi sifət sahiblərindən kənar gəzsinlər, elələrinə qarşı barışmaz olsunlar, onların toruna düşməməyə çalışsınlar. Nümunə üçün şairin daha çox nifrət etdiyi bir neçə mənfi əxlaqi sifəti nəzərdən keçirək.

1. **Şər-böhtan, iftira, qeybət**. İnsanın başına gələn “hər bəla”ya səbəb onun yalan danışan, şər-böhtan atan, qeybət edən dilidir. Başının salamat olmasını, “möhnətdən nicat” tapmasını istəyirsənsə: “Dilüvü saxla kz bü qeybətdən” (yalandan, şər-böhtan atmaqdan) [18, s. 354]. “Bundan ona… xəbər” aparmaq, yalan danışmağa, “böhtan atmağa adət” etmək “şeytan” əməlidir, insan adına yaraşmayan mənfi əxlaqi sifətdir.

2. **Paxıllıq**. Paxıl adam, əgər “həlak olsa cümleyi-aləm” deyər ki, “yenə kəmdir” (azdır). Paxıl, kimsənin “xoşbəxt” olmasını istəməz. Əksinə, başqalarının ölməyinə sevinər. Paxılların “yeri cəhənnəmdir”.

3. **Mərdimazarlıq**. Başqalarının bədxahlığını istəyən mərdimazarlardan uzaq gəz. Çünki: “Mərdimazarlıq yaman işdir. Belə qalmağından ölməyin xoşdur” [18, s. 255].

4. **Şəraba meyllik, sərxoşluq-əyyaşlıq**. Şərab “kövsərdən (cənnət suyundan) ibarət” olsa da ona yaxın düşmə, içmə. “Talibi-badə” olsan hörmətin- “izzətin bada” gedəcək. “Əqli zail”, “hər fəsada mail” edən şərab insanı “zinakarlığa” vadar edir, “əqli-şüurdan” çıxarır, “çox xanimanları” (evləri) viran qoyur. “Simu-zər” verib şərab alma, çünki o, “əqlüvə hicab”dır – qara hicab kimi ağlına kölgə salandır, “ümmül fəsaddır” (fəsadların anası-törədənidir). Zahirən şərabın “günahı” az görünsə də, daxilən “fəsadı” çox böyükdür: “Gərçi günahı az görünür camü badənin, Amma dərini fəth qılır iradənin” [17, s. 467].

**Problemin aktuallığı**. Böyük maarifpərvər şair-pedaqoq S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə haqqındakı mütərəqqi fikirləri öz əhəmiyyətini və aktuallığını bu gün də qoruyub saxlamışdır. Həmin fikirlər pedaqoji fikir tariximizin zənginləşməsinə xidmət edir.

**Problemin yeniliyi**. S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə ilə bağlı fikirləri azərbaycançılıq ideologiyası işığında yeni pedaqoji təfəkkür aspektində, qarşılıqlı əlaqədə tədqiq və təhlil edilmiş, ümumiləşdirilmiş və sistemə salınmışdır.

**Problemin praktik əhəmiyyəti**. S.Ə. Şirvaninin təhsil, təlim və tərbiyə haqqında məqalədə öz yığcam əksini tapmış fikirlərindən istifadə Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə aid dərslik və dərs vəsaitlərinin yeni elmi-nəzəri müddəalarla zənginləşməsinə və bu problemlə bağlı yeni tədqiqatların aparılmasına kömək göstərəcəkdir.

## Ədəbiyyat:


1. Aslan K. Seyid Əzim Şirvaninin yazdığı məktəb dərsliklərində elm və maarifçilik məsələləri //Kitabxanaşünaslıq və informatika. -2010, № 2. -s. 21-28
2. Bağırov, Ə.A., S.Ə. Şirvani və məktəb. Metodik ədəbiyyat / Ə.A. Bağırov. -Bakı: “Maarif”, – 1983. – 220 s.
2. Camalov K. Seyida, ölmərəm, aləmdə səsim var mənim: https://gudelik.az/seyyida-olmerem-alemde-sesim-var-menim!?amp=1
3. Əhmədli, R. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri / R. Əhmədli. -Bakı: Elm, - 2005. – 1958.
4. Əhmədov, H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.M. Əhmədov. -Bakı: “Elm və təhsil”, – 2014. – 432 s.
5. Əhmədov, H. XIX əsr Azərbaycan məktəbi / H. Əhmədov. -Bakı: “Maarif”,– 1983. –220 s.
6. Əsgərli, Z. Seyid Əzim Şirvani / Z. Əsgərli. -Bakı: Elm, – 1977. – 175 s.
7. Göyüşov, Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri / Z.B. Göyüşov. -Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1960. – 212 s.
8. Kərimova F.B. S.Ə. Şirvaninin fəlsəfi görüşlərində əxlaq və tərbiyyə məsələləri //Naxşıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai Elmlər Seriyası. № 2 (91) I cild. -Naxçıvan: NDU “Qeyrət”, – 2018. -s. 171-176
9. Kərimova, F.B., Seyid Əzim Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis.nın avtoreferatı /F.B. Kərimova. Bakı, – 2021. – 24 s.
10. Köçərli, F. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild /F. Köçərli. -Bakı: Avrasiya Press, – 2005. – 464 s.

11. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. / F Qasımzadə -Bakı: Maarif, –1974. – 488 s.
12. Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K. Məmmədov. -Bakı: Elm, –1975. – 247 s.
13. Məmmədov, X. Köhnə dünyanın sonuncu, yeni dünyanın birinci şairi /Şirvani S.Ə. -Bakı: Avrasiya Press, – 2005, -s. 4-32
14. Rüstəmov, İ. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəlləri) /İ. Rüstəmov. -Bakı: “Diplomat” nəşriyyatı, – 2001.–483 s
15. Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 4 aprel 2025-ci il/ https://Prezident/az/az/art/cules/view/68493
16. Seyidov, Ə. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən / Ə. Seyidov. -Bakı: Azərnəşr, – 1958. – 312 s.
17. Şirvani, S.Ə. Seçilmiş əsərləri. I cild /S.Ə. Şirvani. -Bakı: “Şərq-Qərb”, – 2013. – 492 s.
18. Şirvani, S.Ə. Seçilmiş əsərləri. II cild /S.Ə. Şirvani. -Bakı: “Şərq-Qərb”, – 2013. – 480 s.
19. Şirvani, S.Ə. Seçilmiş əsərləri. Üç cilddə. I cild /S.Ə. Şirvani. -Bakı: Avrasiya Press, – 2005. – 400 s.
20. Tağıyev, Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən /Ə. Tağıyev. -Bakı: Azərtədris nəşr, – 1961. –168 s.

**Redaksiyaya daxil olub:** 22.09.2025